**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR DÖVRDƏ DÖVLƏT İDARƏÇİLİYİNİN NƏZARƏT SİSTEMİNİN TƏŞKİLİ PROBLEMLƏRİ

İxtisas: 5909.01- "Dövlət idarəçiliyi"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Xətai Məqsəd oğlu Salmanov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və Siyasi İdarəetmə" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Fəlsəfə elmləri doktoru, professor<br>**Nigar İbrahim qızı Ələkbərova** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru, professor<br>**Hicran Kamran qızı Hüseynova** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Asif Ağalar oğlu İmaməliyev** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Həmdulla Firudin oğlu Məmmədov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | Siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri: | Siyasi elmlər doktoru, professor<br>**Aqiyə Həbib qızı Naxçıvanlı** |

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ümumilikdə mövzunun aktuallığını aşağıdakı müddəalarla əsaslandırmaq olar:

- Müasir dövrdə dövlət idarəçiliyində nəzarət sisteminin rolu və əhəmiyyəti durmadan artmaqdadır. Beləki, nəzarət sistemi dövlət idarəetmə mexanizminin mühüm tərkib elementlərindən və əsas funksiyalarından biri hesab olunur.
- Nəzarət sistemi dövlət idarəçiliyində mövcud riskləri tənzimləyir, qeyri-müəyyənliyi azaldır, böhranlı vəziyyətin qarşısını alır və resurslardan səmərəli istifadəni təmin edir.
- Müasir dövrdə dövlət idarəçiliyində nəzarət sisteminin təşkili, səmərəli nəzarət sisteminin formalaşdırılması və bu sahədəki mövcud problemlərin müəyyən edilərək aradan qaldırılması, dünya dövlətləri tərəfindən prioritet hədəf olaraq qarşıya qoyulmuşdur. Bu baxımdan, səmərəli dövlət nəzarət sisteminin formalaşdırılması, nəzarət sisteminin prinsip və xüsusiyyətlərinin, təşkili problemlərinin tədqiqi son dərəcə aktual məsələyə çevrilmişdir.
- Dövlət idarəçiliyində nəzarət sistemi, dövlət siyasətinin həyata keçirilməsində, hüquqi, demokratik və inkişaf etmiş dövlətin və vətəndaş cəmiyyətinin formalaşmasında, qəbul edilmiş qərarların, qanunların konstitusiyaya uyğunluğunun, qanun aliliyinin təmin olunmasında böyük rola malikdir.
- Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin olmaması səbəbindən bütün sahələrdə xaotiklik və böhran hökm sürürdü. Azərbaycanda hökm sürən xaos və hakimiyyətsizlik fonunda vahid, səmərəli dövlət nəzarəti mexanizminin formalaşdırılmasına, dövlət idarəçilik sahəsində köklü islahatların aparılmasına son dərəcə ehtiyac var idi. Yalnız Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra dövlət nəzarət sisteminin formalaşdırılması məqsədyönlü xarakter almışdır.

- Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin formalaşdırılması Ümummilli Lider Heydər Əliyev tərəfindən mərhələli şəkildə həyata keçirildi. İlk mərhələdə, siyasi, ictimai, iqtisadi, hüquqi və digər sahələrdə köklü islahatlar aparıldı. İkinci mərhələdə, yeni Konstitusiya qəbul edildi və bütün normativ aktların Konstitusiyaya uyğunluğu təmin edildi. Üçüncü mərhələdə, Prezidentin Fərman və Sərəncamlarının, göstəriş və tapşırıqlarının yerinə yetirilməsinə, qanunlara və konstitusion dəyərlərə riayət olunmasına nəzarət mexanizmi yaradıldı. Növbəti mərhələdə isə Hesablama və Auditorlar palatası, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) institutu, Prezident aparatında nəzarət şöbəsi yaradıldı. Beləliklə, hakimiyyətə qayıdışından sonra Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən köklü, radikal islahatlar nəticəsində qısa müddət ərzində Azərbaycanda dövlət nəzarət sisteminin formalaşdırılması mümkün oldu.
- Əsasını Ulu Öndər Heydər Əliyev qoyduğu dövlət nəzarət siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi müasir mərhələdə Azərbaycan Respublikasının dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Dövlət idarəçiliyində nəzarətin əhəmiyyəti cənab Prezident İlham Əliyev tərəfindən dəfələrlə vurğulanmışdır. Azərbaycan Respublikasının Prezidenti, dövlət başçımız cənab İlham Əliyev nəzarətin vacibliyini vurğulayaraq demişdir: “Biz eyni həcmdə olan işi az vəsaitlə icra edə bilərik. Buna nail olmaq üçün, ilk növbədə, şəffaflıq, dövlət nəzarəti və ictimai nəzarət olmalıdır”.[1]
- Nəzarət sisteminin səmərəliliyinin artırılması və müasir dövr tələblərinə uyğunlaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər zaman diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə dövlət başçısı cənab İlham Əliyev

[1] Prezident İlham Əliyev: “Biz eyni həcmdə olan işi az vəsaitlə icra edə bilərik. Buna nail olmaq üçün, ilk növbədə, şəffaflıq, dövlət nəzarəti və ictimai nəzarət olmalıdır”// Azərbayacan qəzeti. - 2019, 31 iyul.

tərəfindən Fərman və Sərəncamlar imzalanmış, müxtəlif tədbirlər həyata keçirilmişdir.

- Nəzarət prosesi zamanı əsas amillərdən biri də məlumatların əldə olunması və təhlil edilməsidir. Əldə olunmuş məlumatlar nəzarət obyektinin real vəziyyətini müəyyən etməyə və fəaliyyətindəki çatışmazlıqların, nöqsanların aşkarlanmasına və aradan qaldırılmasına imkan verir.

**Problemin işlənmə dərəcəsi.** Müasir dövrdə dövlət idarəçiliyinin nəzarət sisteminin təşkili problemləri bir sıra tədqiqatçıların və alimlərin diqqətini cəlb etmişdir və hazırda da bu proses davam etməkdədir. Tədqiqat mövzusu ilə bağlı ədəbiyyatı təhlil edərkən ilk olaraq, Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycanda dövlət nəzarət sisteminin əsasını qoymuş Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" adlı çoxcildli kitabının xüsusi olaraq vurğulanması vacibdir.[2] Bundan başqa, dövlət idarəçiliyinin və nəzarət sisteminin təşkilinin müxtəlif aspektlərinin öyrənilməsində Heydər Əliyev siyasi kursunun layiqli davamçısı və varisi olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İnkişaf - məqsədimizdir" adlı çoxcildlik kitabı da xüsusi əhəmiyyət kəsb edir.[3] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə öz çıxışlarında nəzarətin əhəmiyyətini və vacibliyini qeyd etmişdir. Çıxışlarının birində cənab Prezident İlham Əliyev nəzarətlə bağlı bu fikirləri bildirmişdir: "İdarəetmə sahəsində müsbət islahatlar aparılır. Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. İctimai nəzarət olmasa ölkəmiz uğurla inkişaf edə bilməz."[4]

Dövlət idarəçiliyi və dövlət nəzarəti sahəsi Azərbaycanın bir sıra tədqiqatçıları və alimləri tərəfindən tədqiq edilmişdir. Bu

---

[2] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 46 cilddə, – Bakı: Azərnəşr 1997-2013

[3]Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 120 cilddə, – Bakı: Azərnəşr, 2003-2022

[4]"Prezident İlham Əliyev: İdarəetmə sahəsində müsbət islahatlar aparılır. Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. İctimai nəzarət olmasa ölkəmiz uğurla inkişaf edə bilməz."// Azərbayacan qəzeti. - 2015, 28 may

baxımdan U.K. Ələkbərov, Z.Z.Həbibova, M.Abdullayeva, R. Quliyev, D.A.Bağırov, M. Həsənli, Ə.H. Rzayev kimi müəllifləri göstərmək olar.

Akademik U.K. Ələkbərovun 2018-ci ildə nəşr olunmuş "Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli" adlı əsərində müəllif dövlətin, nəzarət vasitəsilə ali hüquqi qüvvəyə malik qanunların, ictimai həyatın bütün sahələrində, siyasi institutlarda, vətəndaş cəmiyyətinin bütün subyektlərində üstün qüvvəli olmasını təmin etdiyini qeyd etmişdir. Eyni zamanda U.K. Ələkbərov kadrlarla iş və kadr potensialının səmərəliliyinin yüksəldilməsi üçün səmərəli nəzarət və əks əlaqə sistemin yaradılmasının vacibliyini vurğulamışdır. Bundan başqa, U.K. Ələkbərov əsərində qiymətləndirmə zamanı davranışa nəzarət cədvəli metodundan da bəhs etmişdir. Beynəlxalq təcrübəyə toxunan U.K. Ələkbərov dünyanın bir çox ölkələrində xüsusilə də dünyanın əksər inkişaf etmiş ölkələrində dövlət etik komissiyalarının yaradıldığını və bu etik komissiyalar tərəfindən müvafiq sahələrdə qanunvericiliyin həyata keçirilməsinə nəzarət edildiyini qeyd etmişdir. Eyni zamanda vurğulanmışdır ki, yerli idarəetmə və bələdiyyə strukturları ölkənin davamlı-sosial inkişafının təmin edilməsində mühüm rol oynayırlar və bundan irəli gələrək inkişafın davamlı olması üçün qlobal, regional və ölkədaxili səviyyələrdə cərəyan edən beynəlxalq, siyasi, iqtisadi, sosial və ekoloji proseslərin gedişi daim nəzarət altında olmalıdır.[5]

Z.Həbibovanın və M.Abdullayevanın müəllifi olduğu "Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi" adlı dərslikdə dövlət idarəçiliyinin səmərəliliyinin asılı olduğu iki əsas amildən biri kimi nəzarət qeyd olunmuşdur. Bundan başqa, müəlliflər tərəfindən dəyişikliklər prosesinə adaptasiya olmaqda, uyğunlaşmaqda və dəyişikliklərin idarə edilməsində nəzarətin vacibliyi və əsas rol oynadığı qeyd edilmişdir. Eyni zamanda vurğulanmışdır ki, dəyişikliklərin düzgün formada idarə olunması və ona düzgün

---

[5] U.K. Davamli İnkişaf Naminə Kadr Potensialının Təkmilləşdirilməsi: Azərbaycan modeli. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. 251 s.

nəzarətin həyata keçirilməsi inkişafa və müsbət nəticələrə gətirib çıxaracaqdır.[6]

R.Quliyev, nəzarətin əsas formalarından biri olan Konstitusiya nəzarəti sahəsini tədqiq edərək bildirmişdir ki, konstitusiya nəzarəti institutu qanun aliliyinin təmin edilməsinin, insanların hüquq və azadlıqlarının müdafiəsinin mühüm dövlət mexanizmlərindən biridir. Eyni zamanda müəllif qeyd etmişdir ki, 1995-ci ildə ölkəmizdə yeni institutun, dövlətçilik tariximizdə ilk dəfə olaraq konstitusiya nəzarəti orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi təsis olunmuşdur. R.Quliyev Azərbaycanda Konstitusiya Məhkəməsi simasında konstitusiya nəzarəti orqanının fəaliyyətə başlamasının, eyni zamanda bu orqanın müstəqilliyinin təmin edilməsinin və ümumilikdə isə konstitusionalizm ideyalarının inkişaf etdirilməsinin məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlı olduğunu vurğulamışdır.[7]

Azərbaycan Respublikasında dövlət nəzarətinin əsas formalarından biri olan maliyyə nəzarətini tədqiq edən D.A.Bağırov, Həsənli M. maliyyə nəzarətini bütün iqtisadi subyektlərin (dövlət, müəssisə və təşkilatlar) maliyyə fəaliyyətləri üzərində qanunverici və icraedici hakimiyyət orqanlarının nəzarəti kimi xarakterizə etmişdir. Eyni zamanda müəlliflər, maliyyə nəzarətinin planlaşdırma və həyata keçirilmə mərhələlərinin, vəzifələrinin, obyekt və subyektlərinin, təsnifatını açıqlamışdır.

Bundan başqa D.A.Bağırov və Həsənli M. dövlət maliyyə nəzarətinin formalarını (büdcə nəzarəti, vergi nəzarəti, valyuta nəzarəti, kredit nəzarəti, sığorta nəzarəti, investisiya nəzarəti) və Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətini həyata keçirən orqanları və onların fəaliyyətini də araşdırmışdır. Müəlliflər, maliyyə nəzarətinin, idarəetmənin mühüm amili olduğunu

---

[6] Həbibova, M.Abdullayeva. Dəyişikliklərin İdarə Olunması və Dövlət İdarəçiliyi. Ali məktəblər üçün dərslik. Bakı, Elm və Təhsil nəşriyyatı, 2018. 232 s.

[7] Quliyev, R. Heydər Əliyev və Konstitusiya Ədalət Mühakiməsi // Respublika qəzeti.- 2023, 17 mart. - № 59. - S. 6.

vurğulayarq maliyyə sahəsində nəzarətin son dərəcə vacibliyini vurğulamışdır.[8]

Ə.H. Rzayev müəllifi olduğu “Dövlət Nəzarəti: Nəzəriyyə və Praktika” adlı monoqrafiyasında nəzarət anlayışını dar mənada fəaliyyətin yoxlanılması, geniş mənada isə normativ-hüquqi aktların, qəbul olunmuş qərarların tələblərinə riayət edilməsinin və yerinə yetirilməsinin yoxlanması kimi şərh etmişdir. Nəzarətin idarəetmənin əsas funksiyalarından biri olduğunu qeyd edən müəllif, belə bir qənaətə gəlmişdir ki, idarəetmə münasibətlərinə xas olan əlamətlər nəzarət münasibətlərinə də şamil edilməlidir.

Müəllif, bəzi xarici ölkələrin inzibati, yurisdiksion nəzarətini, inzibati ədliyyə, parlament nəzarətini, ombudsman institutunu və onların inkişaf tarixini təhlil edərək belə nəticəyə gəlmişdir ki, nəzarət formaları və növləri ilk olaraq müəyyən bir ölkədə təşəkkül tapmış, daha sonra isə digər ölkələrə yayılmışdır.

Monoqrafiyada dövlət nəzarətinin əsas səmərəlilik amillərindən biri olaraq hüquqi məsuliyyət göstərilir və qeyd olunur ki, nəzarət prosesində hüquqi məsuliyyət tətbiq edilmədən onun təsir mexanizminin fəaliyyətindən danışmaq olmaz. Həmçinin hər bir nəzarət prosesinin nəticəsi aşkar olmuş çatışmazlıqları aradan qaldırmaqla və fəaliyyətində nöqsanlara yol verən şəxslərin cəzalandırılması ilə yekunlaşdırılır.[9]

Dövlət nəzarəti sahəsi ilə bağlı Rusiya tədqiqatçıları və alimləri tərəfindən də araşdırmalar aparılmış, elmi əsərlər yazılmışdır. Ümumiyyətlə, Rusiya tədqiqatçıları tərəfindən dövlət nəzarət sistemi ilə bağlı problemlərə xüsusi elmi maraq göstərilmişdir ki, onlardan V.Çirkini, A.M.Tarasovu, V.Q.Afanasyevi, M.Y.Tixomirovi misal göstərmək olar. Rusiya elmi ədəbiyyatlarında nəzarət anlayışı yoxlamalar aparmaq, müşahidə etmək kimi ifadə olunur.

V.Çirkin dövlət hakimiyyətinin dördüncü qolu kimi nəzarət hakimiyyətinin ayrılması ideyasını irəli sürmüşdür. Eyni zamanda

[8]Bağırov D., Həsənli M. Maliyyə. Ali məktəblər üçün dərslik. Bakı, İqtisad Universiteti Nəşriyyatı, 2011. 425 s.
[9]Rzayev, Ə.H. Dövlət nəzarəti: nəzəriyyə və praktika. Bakı, “Elm” nəşriyyatı, 2008. 310 s.

V.Çirkin nəzarəti "hakimiyyətin yeni budağı göyərir" kimi xarakterizə etmişdir.[10]

A.M.Tarasov öz elmi əsərində nəzarət anlayışını idarəetmə funksiyası kimi qələmə vermişdir. Onun fikrincə, nəzarət əsasən üç elementdən-lazımi məlumatların əldə edilməsi, həmin məlumatların analiz edilməsi və qiymətləndirilməsi, normativ hüquqi aktlarla müəyyən edilmiş standartlardan kənarlaşmalara munasibətin bildirilməsindən ibarətdir.[11]

M.Y.Tixomirovun fikrincə isə, nəzarət ictimai idarəetmənin bir qolu olmaqla yanaşı həm də idarəetmənin sonuncu mərhələsidir. Nəzarət vasitəsi ilə qayda və qanunların, normaların, standartların və s. icrasının analizi və qiymətləndirilməsi aparılır. M.Y.Tixomirova görə nəzarətin əsas məqsədi idarəetmə fəaliyyəti və onunla bağlı olan bütün idarəetmə funksiyalarının yoxlanılmasıdır.[12]

V.Q.Afanasyev nəzarət anlayışını idarəetmə qərarları və qanunları əsasında formalaşmış norma və standartlara nə dərəcədə riayət olunmasının yoxlanılması kimi izah etmişdir. V.Q.Afanasyevə görə nəzarət fəaliyyəti qarşıya qoyulmuş məqsədə nail olmaq üçün hərəkətin şüurlu və məqsədyönlü istiqamətləndirilməsidir.[13]

Dövlət nəzarəti sahəsi bir sıra türk alimləri və tədqiqatçıları tərəfindən də tədqiq edilmişdir. Belə ki, R. Akyel, B. Eryılmaz, S. Sözen, Ö. Köseoğlu kimi müəlliflər, dövlət nəzarəti sahəsi ilə bağlı əhəmiyyətli və ciddi tədqiqat işləri aparmış, elmi məqalələr nəşr etdirmişlər.

R.Akyel, 'Kurumların Çalışmalarında Kalitenin Sağlanması İçin Temel Gereklilikler' adlı elmi məqaləsində qeyd etmişdir ki, dövlət orqanlarının düzgün və qanunauyğun fəaliyyətini təmin etmək üçün mütləq səmərəli nəzarət sistemi qurulmalıdır. Eyni zamanda R. Akyel maliyyə nəzarəti sahəsində də araşdırmalar və sorğular aparmışdır. Müəllif tərəfindən, maliyyə nəzarətinin səmərəlilik dərəcəsinin qiymətləndirilməsi üçün 118 müəssisədə sorğu

[10]Чиркин В. Е. Контрольная власть. Москва, Идея-Пресс,- 2008. -214 с.
[11]Тарасов А.М. Государственный контроль в России. Москва: -2008, - 671 с.
[12]Тихомиров Ю.А. Современное публичное право. Москва: -2008, - 446 с.
[13]Афанасьев В.Г. Человек:общество, управление, информация: Опыт системного подхода. Москва- 2021, - 208 с.

aparılmışdır. Aparılan sorğunun nəticəsi olaraq maliyyə sahəsində nəzarətin xüsusi vacibliyi və yüksək səmərəliliyi qənaətinə gəlinmişdir.[14]

B. Eryılmazın, S. Sözenin və Ö. Köseoğlunun müəllifi olduğu "Kamu Yönetimi" kitabında, müəlliflər nəzarəti dövlətin tənzimləmə siyasətinin əsas tərkib hissəsi kimi xarakterizə etmişlər. Belə ki müəlliflər, dövlət idarəçiliyində tənzimləmənin həyata keçirilməsinin 3 amil - ehtiyat tədbirləri, yoxlamalar və nəzarət sistemi vasitəsilə mümkün olduğu qənaətinə gəlmişlər.[15]

Qərb ədəbiyyatlarında nəzarət anlayışı, yoxlamaq və tənzimləmək, hesabat tələb etmək, qarşısını almaq və istiqamətləndirmək kimi mənalarda ifadə olunur. [16]

Beləliklə, dissertasiya mövzusu üzrə elmi ədəbiyyatların təhlili əsasında belə qənaətə gəlmək olar ki, mövzu həm Azərbaycan həm də xarici alimlərin əsərlərində yer almışdır. Problemin müxtəlif aspektləri öyrənilsə də, ancaq, problemin təhlili tamlıqla əhatə olunmamış və ümumilikdə mövzu kifayət qədər dərindən tədqiq edilməmişdir. Bu da təqdim olunan dissertasiya işinin əhəmiyyətini və dəyərini şərtləndirən amillərdəndir. Bu baxımdan təqdim edilən dissertasiya işi xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, bu sahə üzrə elmi ədəbiyyatlarda mövcud olan çatışmazlıqların aradan qaldırılmasına və elmin gələcək inkişafına dəyər verə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini dövlət nəzarət sistemi, onun formalaşması və inkişafı prosesləritəşkil edir. Dissertasiya işinin predmetini isə dövlət nəzarət sisteminin xüsusiyyətləri, onun səmərəliliyinin yüksəldilməsi amilləri və inkişafı tendensiyaları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədidünya ölkələrinin və Azərbaycan Respublikasının təcrübəsinin təhlili əsasında müasir dövlət idarəçiliyində nəzarət

---

[14] Akyel R. Kurumların Çalışmalarında Kalitenin Sağlanması İçin Temel Gereklilikler. Sosyal Bilimler Enstitüsü Dergisi,2015. 1 s.

[15] B. Eryılmazın, S. Sözenin və Ö. Köseoğlu. Kamu Yönetimi. Eskişehir.Anadolu Üniversitesi neşri, 2019.214 s.

[16] Rzayev Q. R. Nəzarət və təftiş. Ali məktəblər üçün dərslik. Bakı, "Adiloğlu Nəşriyyatı", 2011. 264 s.

sisteminin təşkili problemlərinin, onun səmərəliliyinin artırılması və inkişaf tendensiyalarının araşdırılmasından ibarətdir.

Qeyd edilmiş məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı əsas vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Müasir dövrdə dövlət nəzarət mexanizminin formalaşması xüsusiyyətlərinin, prinsiplərinin və nəzarət sisteminin rolunun nəzəri-metodoloji aspektdən araşdırılması;
- Dövlət nəzarət sisteminin müasir vəziyyətinin təhlil edilməsi;
- Dövlət nəzarət sisteminin yeni inkişaf istiqamətlərinin təhlil edilməsi;
- Nəzarət sisteminin Azərbaycan Respublikasında dövlət idarəçiliyinə təsirinin qiymətləndirilməsi;
- Azərbaycanda dövlət nəzarət sistemindəki mövcud problemlərin araşdırılması;
- Azərbaycanda dövlət nəzarət sistemininin müasir vəziyyətinin təhlili;
- Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyyələrin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat işində induksiya və deduksiya, analiz və sintez kimi ümumməntiqi metodlardan həmçinin sistemli, struktur funksional analiz, müqayisəli təhlil,kontent-analiz və digər elmi araşdırma metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Dövlət nəzarət sistemi dövlətin inkişafının təmin olunmasında rol oynayan başlıca amillərdən biridir.
- Nəzarət, idarəetmənin mühüm funksiyalarından biridir.
- Dövlət nəzarət sistemi sabit cəmiyyət mühitinin formalaşmasında və qanun aliliyinin təmin olunmasında mühüm rol oynayır.
- Dövlət nəzarət sisteminin əsas məqsədi dövlət siyasətinin uğurla yerinə yetirilməsini təmin etməkdir.
- Şəffaf, düzgün və səmərəli nəzarət sistemi demokratik dövlətin təməl prinsiplərindən biridir.
- Azərbaycan Respublikasında dövlət nəzarət sistemin təkmilləşdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

- Son illər ərzində Azərbaycanda dövlət nəzarət sistemi sahəsində bir sıra uğurlar əldə olunmuş, dövlət orqanlarının fəaliyyətinə nəzarət, dövlət orqanlarında informasiya açıqlığı, hüquqi məsuliyyət və hesabatlılıq gücləndirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Ümumi olaraq dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Dövlət nəzarəti və onun reallaşması probleminə nəzəri konseptual yanaşmalar təhlili edilmiş, aparılan araşdırmalar əsasında müəllif yanaşmaları təqdim edilmişdir.
- Dövlət nəzarəti və onun reallaşdırılması mexanizmləri dünya dövlətləri təcrübəsində araşdırılmışdır.
- Dünya dövlətlərində dövlət nəzarətinin reallaşması modellərinin təhlili əsasında qabaqcıl təcrübənin Azərbaycanda tətbiqi imkanları nəzərdən keçirilmişdir.
- İlk dəfə olaraq Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin mövcud vəziyyəti və müxtəlif nəzarət formalarının reallaşması mexanizmlərinin politoloji təhlili aparılmışdır.
- Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin səmərəliliyinin artırılması amilləri və yolları arqumentli şəkildə açılıb göstərilmişdir.
- Azərbaycan Respublikasında dövlət nəzarətində əldə olunan uğurların milli inkişafa təsirlərinin müsbət nəticələri əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin praktiki əhəmiyyəti müasir dövrdə dövlət idarəçiliyinin nəzarət sisteminin təşkili problemlərinin tədqiqindən və bu tədqiqatın əsasında dövlət nəzarət mexanizminin təkmilləşdirilməsi üçün irəli sürülən təkliflərdən ibarətdir. Tədqiqat işində mövcud olan müddəalar və əldə olunmuş nəticələr dövlət nəzarət sisteminin qanun, proqram, layihə və təkliflərin hazırlanması zamanı istifadə oluna bilər. Eyni zamanda elmi-tədqiqat işlərində, ali məktəblərdə müvafiq ixtisas kursların tədrisində də istifadəsi məqsədəuyğun hesab olunur. Aparılan tədqiqatın nəticəsində irəli sürülən tövsiyələrin icra olunması dövlət nəzarət sistemində mövcud olan problemləri aradan qaldırılmasında və dövlət nəzarət sistemində səmərəliliyinin yüksəldilməsinə müsbət təsir göstərə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" və "Politologiya və Siyasi İdarəetmə kafedrasi" kafedralarının 17 oktyabr 2023-cü il tarixli iclasında müzakirə olunaraq müdafiəyə tövsiyə olunmuşdur. Tədqiqatın müddəa və nəticələri müəllifin elmi məqalələrində və konfrans materiallarında əks olunmuşdur. Əsas müddəalar respublika və beynəlxalq elmi konfranslarda, seminarlarda edilən çıxış və məruzələrdə, Azərbaycanda və xarici ölkələrdə çap olunan elmi məqalələrdə aprobasiya olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və Siyasi İdarəetmə" kafedrası.

**Dissertasiyanın quruluşuvə həcmi.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın struktur bölmələri olan giriş 24056, üç paraqrafdan ibarət olan birinci fəsil 106493, üç paraqrafdan ibarət olan ikinci fəsil 125136, nəticə 7432 olmaqla, ümumi həcmi 263117 işarə təşkil edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**"-ində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, aprobasiyası və tətbiqi, dissertasiyanın həcmi və strukturu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin I fəsli "**Dövlət idarəçiliyində nəzarət sistemi problemlərinin nəzəri-metodoloji və praktiki aspektləri**" adlanır və 3 yarımfəsildən ibarətdir.

Birinci fəslin **"Dövlət idarəçiliyində nəzarət sisteminin rolu, əhəmiyyəti və səciyyəvi xüsusiyyətləri"** adlanan birinci yarımfəslində göstərilir ki, idarəetmənin mühüm funksiyalarından biri hesab olunan nəzarət iki istiqamət üzrə aparılır. Birinci istiqamətdə, qanunlara riayət olunması, qanunvericilik aktlarının

tələblərinin həyata keçirilməsi, müəyyən edilmiş qadağalara əməl olunması yoxlanılır. İkinci istiqamət isə, real vəziyyətin müəyyənləşdirilməsi, nəzarət obyektini baş verə biləcək dəyişikliklərə uyğunlaşdırılması məqsədilə aparılır.

Paraqrafda nəzarət anlayışına verilmiş müxtəlif təriflərə nəzər salınır. Müəllif tərəfindən isə dövlət nəzarət sistemi anlayışı, baş vermiş hadisə və proseslər haqqında düzgün informasiyaların əldə olunması, həmin informasiyaların təhlil edilməsi, qanun pozuntuları hallarının müəyyənləşdirilməsi və aradan qaldırılması, insanların hüquq və azadlıqlarının, qanun aliliyinin təmin edilməsi, qarşıya qoyulmuş məqsəd və vəzifələrə tam və vaxtında nail olmaq məqsədilə həyata keçirilən tədbirlərin məcmusu kimi xarakterizə olunmuşdur.

Eyni zamanda, dissertasiyanın bu hissəsində nəzarət sisteminin rolu, əhəmiyyəti və zəruriliyi konseptual şəkildə tədqiq olunur və göstərilir ki, nəzarət sistemi idarəetmə fəaliyyətində şəffaflığı və qanun aliliyini təmin etmək üçün ən mühüm vasitədir. Bu baxımdan da dövlət nəzarət sistemi ilə bağlı bir sıra yerli və xarici müəlliflərin, tədqiqatçıların və alimlərin yanaşmaları və təhlilləri araşdırılmışdır.

Birinci fəslin birinci paraqrafında nəzarət sisteminin səciyyəvi xüsusiyyətləri-təşkili mərhələləri, prinsipləri, məqsəd və vəzifələri, metodları, icra olunma zamanına görə formaları, nəzarət sisteminin hüquqi bazası, altsistemləri ayrı-ayrılıqda təhlil edilmişdir.

Dissertasiyanın bu hissəsində dövlətin inkişafında nəzarət sisteminin rolu tədqiq olunur və belə qənaətə gəlinir ki, nəzarət sistemi dövlətin sosial, iqtisadi və hüquqi sahələrinin inkişafında xüsusi rol oynayır. Həmçinin qeyd olunmuşdur ki, şəffaf nəzarət sistemi mövcud olan dövlətlərdə inkişaf, tərəqqi və sabitlik hökm sürür və müasir dövrdə nəzarət sistemi dövlət idarəçiliyinin vacib və ayrılmaz elementlərindən biridir.

Daha sonra müəllif tərəfindən müasir dövrdə dövlət idarəçiliyində nəzarət sisteminin rolunun və əhəmiyyətinin artması fonunda bu sahəyə diqqətin yüksəldilməsinin vacibliyi vurğulanır. Paraqrafda belə qənaətə gəlinir ki, nəzarət, dövlət idarəçiliyində qanun aliliyinin təmin olunmasında və dövlətin qarşıya qoyduğu

hədəflərə nail olmasında böyük rol oynayır. Eyni zamanda vurğulanır ki, dövlətin idarəçilikdə nəzarət sistemi tətbiq etməsinin əsas məqsədi caza vermək deyil, meydana çıxan kənarlaşmaların, mövcud problemlərin və qanunazidd halların vaxtında aşkarlanaraq ən effektiv üsullar ilə qarşısının alınmasıdır.

Birinci fəslin ikinci paraqrafı **"Dövlət nəzarət sistemi ilə bağlı dünya dövlətlərinin qabaqcıl təcrübəsi"** adlanır. Həmin paraqrafda qeyd olunur ki, müasir dövrdə dövlət idarəçiliyində nəzarət orqanları dünya dövlətlərinin idarəetmə strukturunun strateji mövqeyində yer tuturlar. Tədqiqat zamanı nəzarət sahəsində qabaqcıl təcrübəyə malik 4 dövlətin - Amerika Birləşmiş Ştatlarının, İngiltərənin, Rusiyanın və Türkiyənin bütünlükdə dövlət nəzarət sistemi və onun əsas formaları təhlil edilmişdir. Təhlillər nəticəsində qeyd olunmuşdur ki, tədqiq olunmuş 4 dövlətin (Amerika Birləşmiş Ştatları, İngiltərə, Rusiya və Türkiyə) hər biri dünyanın inkişaf etmiş dövlətidir və bu inkişafın da əldə olunmasında məhz düzgün, şəffaf və səmərəli nəzarət sistemi xüsusi rol oynamışdır.

Bundan başqa aparılan təhlillərin nəticəsində, əldə olunmuş müsbət təcrübələrin Azərbaycanda tətbiqi ölkəmizdə dövlət nəzarət sisteminin və onun formalarının daha da təminləşdirilməsinə və şəfaflaşdırılmasına müsbət təsir edəcəyi vurğulanmışdır.

Eyni zamanda yarımfəsildə Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı olan "INTOSAI"-nin fəaliyyəti araşdırılmışdır. Qeyd olunmuşdur ki, digər ali audit qurumlarının təcrübəsindən yararlanmaq məqsədilə INTOSAI-nin, yeddi regional təşkilatı fəaliyyət göstərir. Belə ki, INTOSAI-nin Afrika regionu üzrə AFROSAI, Ərəb ölkələri üzrə ARABOSAI, Asiya regionu üzrə ASOSAI, Karib dənizi üzrə CAROSAI, Avropa regionu üzrə EUROSAI, Latın Amerikası üzrə OLACEF və Cənubi Sakit Okean regionu üzrə isə PASAI kimi regional təşkilatları var.[17]

Eyni zamanda dissertasiyanın bu hissəsində Lima Bəyannaməsi haqqında bəhs olunmuşdur. Bildirilmişdir ki, 1977-ci ildə Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının IX Konqresində qəbul edilmiş Lima Bəyannaməsində, auditin müstəqilliyinin təmin

[17] https://sai.gov.az/

edilməsi, məqsədləri, metodları, ali audit institutunun parlament, hökuməti və onun adminstrasiyası ilə münasibətlərinin tənzimləməsi, kadr təyinatı və beynəlxalq təcrübə mübadiləsi, hesabatların hazırlanması kimi məsələlər əks olunmuşdur. Lima Bəyannaməsində audit yalnız məqsəd kimi deyil, maliyyə hesabatlılığının gücləndirilməsinin və dövlət idarəetmə sistemində cavabdehliyin əsas komponenti kimi xarakterizə edilmişdir.[18]

Yarımfəslin sonunda müəllif tərəfindən belə bir nəticəyə gəlinmişdir ki, dövlət idarəçiliyində nəzarət sistemini formalaşdırarkən müasir dövr dünya standartlarının nəzərə alınması vacib şərtlərdən biridir. Həmçinin, dövlət nəzarəti sahəsində geniş təcrübəyə malik olan dövlətlərin təcrübəsindən də istifadə etməklə nəzarət sisteminin inkişafına, qanunvericilik bazasının daha da təkmilləşdirilməsinə nail olmaq olar və inkişaf etmiş dünya ölkələrinin təcrübəsindən yararlanmaq, nəzarət sahəsində effektiv nəticələrə səbəb olacaq. Eyni zamanda nəzarətlə bağlı beynəlxalq təşkilatların yaradılması nəzarət sahəsində beynəlxalq təcrübənin mübadiləsi baxımından xeyli səmərəli olacaqdır.

Birinci fəslin üçüncü paraqrafı "**Dövlət nəzarət sisteminin formaları və həyata keçirilmə prinsipləri**" adlanır. Bu paraqrafda dövlət nəzarət sisteminin əsas formaları olan maliyyə nəzarəti, məhkəmə nəzarəti, konstitusiya nəzarəti, sosial nəzarət, ictimai nəzarət, onların səciyyəvi xüsusiyyətləri və həyata keçirilmə prinsipləri ayrı-ayrılıqda təhlil edilmişdir. Maliyyə nəzarəti sahəsində aparılan araşdırmalar onu göstərir ki, maliyyə nəzarəti maliyyə vəsaitlərindən səmərəli istifadənin və bölgünün təmin olunmasında, maliyyə intizamının artırılmasında, dövlət maliyyə siyasətinin uğurla həyata keçirilməsində, sabit maliyyə mühitinin formalaşdırılmasında mühüm rol oynamaqla ümumilikdə dövlətin sosial-iqtisadi inkişafına təkan verir. Eyni zamanda birinci fəslin üçüncü paraqrafında maliyyə nəzarətinin təşkili prinsipləri açıqlanaraq qeyd olunmuşdur ki, dövlət maliyyə nəzarətinin təşkili prinsipləri bir-biri ilə zəncirvari şəkildə bağlıdır və bu səbəbdən də maliyyə nəzarətinin təşkili

---

[18] https://www.intosai.org/

prinsiplərindən birinin pozulması, ümumilikdə maliyyə nəzarəti sisteminə mənfi təsir göstərəcəkdir.

Daha sonra dövlət nəzarətinin əsas formalarından biri olan məhkəmə nəzarəti araşdırılmışdır. Araşdırmalar nəticəsində belə qənaətə gəlinmişdir ki, dövlət məhkəmə nəzarəti vətəndaşların hüquq və azadlıqlarının qorunmasına zəmanət verir və müasir dövrdə şəffaf məhkəmə nəzarəti hüquqi dövlətin əsas əlamətlərindən biri hesab olunur.

Dövlət nəzarətinin digər əsas forması olan konstitusiya nəzarətinin araşdırılması zamanı vurğulanmışdır ki, konstitusiya nəzarəti konstitusiya aliliyini təmin etməklə yanaşı qanunvericilikdə mövcud olan ziddiyyətli halları və boşluqları aradan qaldırır.

Dissertasiyanın bu hissəsində sosial nəzarət tədqiq edilmiş və qeyd olunmuşdur ki, sosial nəzarət ictimai xaosunun qarşısını alır, cəmiyyəti sıx birləşdirərək nizamlı və sabit cəmiyyət formalaşdırır. Eyni zamanda qeyd olunmuşdur ki, müasir dövrdə cəmiyyətin mürəkkəblik xüsusiyyətinin artması fonunda daxili nizamı və sabitliyi qoruyub saxlamaq hər bir dövlətin qarşısında dayanan əsas məsələlərdəndir. Məhz bu faktın sosial nəzarətin əhəmiyyətini və rolunu daha da artırdığı qeyd olunmuşdur.

Daha sonra dövlət nəzarətinin növbəti əsas forması olan ictimai nəzarət və onun xüsusiyyətləri araşdırılmışdır. Eyni zamanda ictimai nəzarətlə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlər, qətnamələr və tövsiyyələr əks olunmuşdur. Araşdırmalar nəticəsində belə qənaətə gəlinmişdir ki, ictimai nəzarət dövlət idarəçilik fəaliyyətinin çevikliyini və səmərəliliyini yüksəldir, dövlət orqanlarının fəaliyyəti ilə bağlı operativ, dolğun məlumatların əldə olunmasında mühüm rol oynayır. Eyni zamanda vurğulanmışdır ki, ictimai nəzarət dövlət-cəmiyyət münasibətlərinin qurulmasında körpü rolunu oynayır və qəbul edilmiş qərarlarda vətəndaş maraqlarının təmin edilməsinə xidmət edir.

Paraqrafın sonunda fövqəladə vəziyyətlər zamanı dünya dövlətləri tərəfindən həyata keçirilən nəzarət tədbirləri yer almışdır. Bu baxımdan COVID-19 koronavirus pandemiyası ilə mübarizə nümunə olaraq araşdırılmışdır. Belə ki, 2019-cu ilin dekabr ayından etibarən Çində meydana çıxan və qısa müddət ərzində bütün dünyanı

öz cənginə alan COVID-19 koronavirus pandemiyası ilə mübarizə çərçivəsində dünya dövlətlərinin həyata keçirdiyi nəzarət tədbirləri açıqlanmışdır. Ümumilikdə isə belə nəticəyə gəlinmişdir ki, nəzarət sistemi dövləti fövqəladə halların mənfi təsirlərindən maksimum dərəcədə qoruyacaq və bu vəziyyətdən daha az itkilərlə çıxmasına səbəb olacaq.

Tədqiqatın ikinci fəsili "**Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin formalaşması, inkişafı və müasir vəziyyəti**" adlanır və üç yarımfəsildən ibarətdir.

İkinci fəsilin **"Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin formalaşması və inkişafı istiqamətləri"** adlanan birinci paraqrafında qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında dövlət nəzarət sistemi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1990-cı illərin əvvəllərində Azərbaycanda istər dövlət idarəçiliyi sahəsində istərsə də digər sahələrdə xaotiklik, özbaşınalıq baş alıb gedir, qanunlar işləmir, bir sözlə ölkədə bütün sahələrdə nəzarətsizlik hökm sürürdü. Xalqın istəyi və təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev, ilk növbədə Azərbaycanda hökm sürən xaosun, özbaşınalığın, hərc-mərcliyin qarşısının alınması üçün dövlət nəzarət sisteminin formalaşdırılmasını əsas vəzifə olaraq qarşıya qoydu. Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasında bütün sahələr üzrə həyata keçirilən qəti və köklü islahatlar, dövlət idarəçilik sahəsində təkmilləşdirilmə prosesinin aparılması, həmçinin dövlət orqanlarında və nazirliklərində səmərəsiz nəzarət-təftiş orqanlarının ləğv olunması, dövlət nəzarət orqanlarının öz vəzifə səlahiyyətlərindən kənar yoxlamalar aparmasının qadağan olunması və sistemli olaraq ardıcıl şəkildə həyata keçirilən effektiv, məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda dövlət nəzarət sistemi formalaşdı.

Eyni zamanda qeyd olunmuşdur ki, Azərbaycanda dövlət nəzarət sisteminin formalaşdırılması istiqamətində atılan ən mühüm addımlardan biri də 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi oldu.

Bu hissədə Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycanda dövlət qulluğu, iqtisadiyyat və onun müxtəlif (vergi, gömrük, valyuta, büdcə) sahələrində, korrupsiya ilə mübarizə və digər sahələrdə dövlət nəzarət sisteminin formalaşması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs olunur.

Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin əsas prinsipləri aşağıdakı qaydada təsnifləşdirilə bilər: Obyektivlik, düzgünlük, müstəqillik, sistemlilik, aşkarlıq, elmilik.

Azərbaycan Respublikasında dövlət nəzarət siyasətinin prioritet məqsədlərini aşağıdakı kimi müəyyən etmək olar: vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması; dövlət idarəçiliyində özbaşınalıq, korrupsiya və digər neqativ halların qarşısının alınması; dövlət idarəçiliyində və dövlət orqanlarının fəaliyyətində qanun aliliyinin təmin olunması; dövlətin iqtisadi, sosial, hüquqi və digər sahələrinin inkişafının təmin olunması.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət nəzarət siyasəti sonralar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilmişdir. Hazırda ölkəmizdə bütün sahələr üzrə təkmil və səmərəli nəzarət mexanizmi mövcuddur. Aparılan araşdırmalar göstərmişdir ki, Azərbaycan Respublikasında dayanıqlı və davamlı inkişafın əldə olunmasında əsas rol oynayan faktorlardan biri də məhz səmərəli dövlət nəzarət sistemidir.

II fəslin ikinci paraqrafı **"Azərbaycan Respublikasında dövlət nəzarətinin formaları və həyata keçirilmə mexanizmləri"** adlanır. Paraqrafda, Azərbaycanda dövlət nəzarət sisteminin əsas formaları təhlil edilərək qeyd olunur ki, dövlət nəzarətinin ən əsas və ali forması prezident nəzarətidir. Eyni zamanda yarımfəsildə prezident nəzarətinin uğurlu nəticələri açıqlanaraq qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında yüksəksəviyyəli və dünya ölkələrinə nümunə olacaq Prezident nəzarəti mövcuddur. Bu yüksəksəviyyəli nəzarətin nəticəsidir ki, Azərbaycan dövləti cənab Prezident İlham Əliyevin rəhbərliyi və nəzarəti altında qarşıya qoyduğu bütün hədəflərə nail olmuşdur.

Eyni zamanda müəllif tərəfindən vurğulanmışdır ki, prezident nəzarətinin müsbət nəticələri regionların sosial-iqtisadi inkişafında da öz əksini tapmışdır. Belə ki, regionların sosial-iqtisadi inkişafı və regionda yaşayan insanların rifah halının yüksəldilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət mərkəzində və nəzarətində olmuşdur. Dissertasiyanın bu hissəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında və təşəbbüsü əsasında regionların inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərin, 2004-2018-ci illər üzrə qrafikinə nəzər salınmışdır. 1-ci qrafikdə, 2004-2018-ci illər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionlarda 1821 müxtəlif təyinatlı obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirak etdiyi qeyd olunmuşdur.

2-ci qrafikdə isə regionların inkişafı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2004-2018-ci illər ərzində 405 sərəncamın imzalandığı əks olunmuşdur.[19]

Regionların inkişafı istiqamətində əldə olunan müsbət statistik göstəricilər, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sahəyə olan xüsusi nəzarətinin nəticəsində mümkün olmuşdur.

Dissertasiyanın bu hissəsində dövlət nəzarəti ilə, həyata keçirilən islahatların qarşılıqlı əlaqədə olduğu qeyd olunur. Vurğulanır ki, dövlət nəzarət sistemi müxtəlif sahələrdə (sosial, iqtisadi, hüquqi, siyasi və s.) islahatların həyata keçirilməsinə təkan verən əsas amillərdən biridir. Eyni zamanda öz növbəsində Azərbaycanda həyata keçirilən köklü islahatlar, dövlət nəzarət sisteminin bazar iqtisadiyyatı şərtlərinə uyğunlaşdırılmasına, təsərrüfat subyektlərində daxili nəzarət sisteminin gücləndirilməsinə və dövlət nəzarət sistemində tənzimləyici normativ hüquqi bazanın təkmilləşdirilməsinə geniş imkanlar yaratmışdır.

Daha sonra dissertasiyanın bu hissəsində Azərbaycanda dövlət nəzarətinin digər formaları olan konstitusiya nəzarətinin, məhkəmə nəzarətinin, ictimai nəzarətin həyata keçirilmə mexanizmləri və Azərbaycan dövlətinin pandemiya ilə mübarizədə, eyni zamanda müxtəlif sahələr üzrə (təhsil, enerji, sosial) həyata keçirdiyi nəzarət

[19] https://www.stat.gov.az/

siyasəti ilə bağlı məlumatlar yer almış və nəzarət siyasətinin uğurlu nəticələri qrafik formada əks olunmuşdur. Belə ki, qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında 2004-2018-ci illərdə orta aylıq əməkhaqqı 77,4 manatdan 540 manata qədər yüksəlmiş, yoxsulluq səviyyəsi isə 44,7 faizdən 5,1 faizə qədər azalmışdır.

Tədqiqatın bu paraqrafında Azərbaycan Respublikasında nəzarətin əsas formalarından biri olan ictimai nəzarətə toxunularaq qeyd olunmuşdur ki, son dövrlər ölkəmizdə ictimai nəzarətin rolu və əhəmiyyəti xeyli artmışdır. Eyni zamanda ictimai nəzarətin vacibliyinin və əhəmiyyətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dəfələrlə vurğulanması və dövlət Başçımızın bu sahəyə xüsusi diqqətinin olması qeyd olunmuşdur. Bundan başqa, ictimai nəzarətin prinsipləri, təşkili formaları, vəzifələri, qanunvericilik bazası (Azərbaycan Respublikasının Konstitusiyasının 54.1-ci maddəsi, "İctimai İştirakçılıq Haqqında" Azərbaycan Respublikası qanunu) və "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"-nda ictimai nəzarətin inkşaf etdirilməsi üçün qarşıya qoyulmuş vəzifələr açıqlanmışdır.

Dissertasiyanın bu hissəsində Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət nəzarət sisteminin hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində imzalanmış Fərman və Sərəncamlar da öz əksini tapmışdır.

II fəslin üçüncü paraqrafı **"Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin səmərəliliyinin artırılması və inkişaf tendensiyaları"** adlanır. Yarımfəsildə qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin səmərəliliyinin artırılmasında dövlət maliyyə nəzarəti əsas rol oynayır. Bu baxımdan da Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin səmərəliliyinin artırılmasında xüsusi rol oynayan maliyyə nəzarəti və onun formaları ətraflı şəkildə təhlil edilmişdir. Eyni zamanda dövlət maliyyə nəzarətini həyata keçirən orqanların-Azərbaycan Respublikasının Hesablama Palatasının, Prezidentin İcra Aparatının Dövlət Nəzarəti şöbəsinin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Azərbaycan Respublikasının Vergilər

nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Azərbaycan Respublikasının Mərkəzi Bankının, Auditorlar Palatasının fəaliyyəti araşdırılmışdır. Vurğulanmışdır ki, müstəqil Azərbaycan Respublikasında maliyyə nəzarətinin formalaşması ötən əsrin 90-cı illərindən başlamışdır. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda dövlət maliyyə sahəsində köklü islahatların həyata keçirilməsinə və nəzarət mexanizminin formalaşmasına çox ciddi ehtiyyac var idi. Bu istiqamətdə Ümummilli Lider Heydər Əliyev tərəfindən atılan addımlar, həyata keçirilən ardıcıl tədbirlər, imzalanmış Fərman və Sərəncamlar nəticəsində dövlət maliyyə nəzarəti sahəsində çox ciddi canlanma baş verdi: maliyyə sahəsində qanunçuluq bərpa edildi, maliyyə nəzarəti prosesini icra edən dövlət orqanlarının funksiyaları, vəzifələri müəyyənləşdirildi, dövlət maliyyə sahəsində özbaşınalığa və lazımsız yoxlamalara son qoyuldu.

Paraqrafın sonunda ümumilikdə belə bir nəticəyə gəlinmişdir ki, hazırda Azərbaycan Respublikasında səmərəli və effektiv maliyyə nəzarəti sistemi formalaşmışdır. Formalaşmış səmərəli və effektiv maliyyə nəzarəti sistemi Azərbaycanda maliyyə sahəsinin şəffaflaşdırılması ilə yanaşı ölkəmizin sürətli və dayanıqlı inkişafına da təkan vermişdir. Eyni zamanda digər nəzarət formaları ilə qarşılıqlı əlaqədə olan maliyyə nəzarəti bütünlükdə Azərbaycan Respublikasında dövlət nəzarət sisteminin səmərəliliyinin artırılmasına müsbət təsir etmişdir.

Dissertasiya işinin “**Nəticə**” hissəsində ümumiləşdirmələr aparılmış və ümumiləşdirmələr əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən tövsiyə və təkliflər irəli sürülmüşdür. Müəllif belə qənaətə gəlmişdir ki, müasir dövrdə dövlət idarəçiliyini nəzarət sistemi olmadan təsəvvür etmək mümkün deyil və ümumilikdə nəzarət sistemi milli inkişafın təmin olunması baxımından xüsusi əhəmiyyətə malik faktor kimi xarakterizə olunmaqdadır.

Mövcud dünya təcrübəsi göstərir ki, nəzarət sistemi dövlətin inkişafında əsas rol oynayan faktorlardan biridir və nəzarət sistemi olmadan inkişafa və tərəqqiyə nail olmaq mümkün deyildir. Nəzarət sistemi olan dövlətlərdə inkişaf, tərəqqi, sabitlik hökm sürəcək. Əksinə nəzarət sistemi olmayan və ya zəif olan dövlətlərdə böhran, xaotiklik və tənəzzül qaçılmaz olacaqdır.

İctimai, sosial, iqtisadi, hüquqi proseslərin sürətlə inkişaf etdiyi və dəyişdiyi müasir dövrümüzdə, bu sahələri əhatə edən nəzarət sistemi də bütün dəyişiklərə uyğun və paralel olaraq təkmilləşdirilməli, müasir dövr tələblərinə cavab verməlidir. Bu mənada, dövlət nəzarət sahəsində qabaqcıl təcrübəyə və uğurlu nəticələrə malik dövlətlərin təcrübəsindən istifadə olunması xeyli səmərəli və effektiv olardı.

Azərbaycan Respublikasında nəzarət formalarında tətbiq olunan üslüb və metodlar özünü doğrultmaqla və öz bəhrəsini verməklə bu sahədə uğurların əldə olunmasına gətirib çıxarmışdır. Bu mənada xüsusilə vurğulanmalıdır ki, Azərbaycan Respublikasında cənab Prezident İlham Əliyevin rəhbərliyi altında dünya ölkələrinə nümunə olacaq, səmərəli və yüksəksəviyyəli prezident nəzarəti mövcuddur. Bunun da nəticəsidir ki, hazırda Azərbaycan Respublikasında bütün sahələr üzrə təkmil və səmərəli dövlət nəzarət sistemi mövcuddur. Eyni zamanda, Azərbaycan Respublikasında həyata keçirilən uğurlu dövlət nəzarəti siyasəti səmərəli dövlət idarəçiliyinin formalaşması ilə nəticələnmişdir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**


1. Dövlət idarəçiliyində nəzarət sisteminin təşkili // Heydər Əliyev ideyaları və müasir Azərbaycan mövzusunda doktorant və dissertantların elmi-praktik konfransı, – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, - 2019. – s.200-217.
2. Dövlətin maliyyə nəzarət sistemi // Geostrategiya, – 2019. № 6 (54). – s. 146-150.
3. State Constitutional Control // 1st International CEO Communication, Economics, Organization & Social Sciences Congress, – Bosnia Hersogovina, – 2020. – s.401-405.
4. Organization of Control System In Public Administration In Modern Age // 5 th International EMI Entreprership & Social Sciences Congress, – Gostivar/N. Macedonia, – 2020. – s.350-357.
5. Dövlətin büdcə nəzarət sistemi (Azərbaycan timsalında)//Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2020. № 4 (72). – s.315-323.
6. Dövlət qulluğunda nəzarət sisteminin təşkili // 1st INTERNATIONAL HAZAR SCIENTIFIC RESEARCH CONFERENCE, – Baku, – 2020. – s.338- 348.
7. Ümummilli Lider Heydər Əliyevin siyasətində nəzarət amili: Azərbaycanda ictimai nəzarətin rolu və əhəmiyyəti // Heydər Əliyev ideyaları və müasir Azərbaycan mövzusunda doktorant və dissertantların elmi-praktik konfransı, – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, - 2021. – s 247-260.
8. CONTROL SYSTEM OF PUBLIC ADMINISTRATION: AZERBAIJAN EXAMPLE // International Journal of Humanities and Social Development Research (IJHSDR), – Bakı, – 2021. – s.72-106.
9. Devlet Hizmetinde Kontrol Sistemi // 2 nd INTERNATIONAL ECONOMICS AND BUSINESS SYMPOSIUM, – Turkey, – 2021. – s. 59-62.
10. Pandemiya ilə mübarizədə dövlət nəzarət mexanizmi // Geostrategiya, – 2021. № 3 (63). – s.22-27.

11. Sosial nəzarət // Geostrategiya, – 2021. № 1 (61). – s.20-24.
12. Public Control: Problems Of Formation And Organization Of Public Control İn Azerbaijan// SocioEconomic Challenges, – 2021. Volume 5, İssue 4. – s. 114-121.

Dissertasiyanın müdafiəsi "18" mart 2024-cü il tarixində saat 13:30-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq olar.
Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16.02.2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.10.2023
Kağızın formatı: A5
Həcm: 37.971
Tiraj: 100